# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 166** **Bakı şəhəri, 9 iyun 2021-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 12 oktyabr tarixli 427 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnternet telekommunikasiya xidməti göstərən operatorların və provayderlərin uçotunun aparılması Qaydası"nda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 12 oktyabr tarixli 427 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1891; 2018, № 4, maddə 836, № 9, maddə 1916) ilə təsdiq edilmiş "İnternet telekommunikasiya xidməti göstərən operatorların və provayderlərin uçotunun aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 3.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.2. Operatorlar və provayderlər uçota alınmaları üçün "Elektron hökumət" portalına daxil olaraq müvafiq autentifikasiya prosesini keçməklə, bu Qaydanın 1 və 2 nömrəli əlavələrində göstərilən formada ərizəni elektron qaydada doldururlar, elektron imza sertifikatlarından istifadə etməklə imzalayırlar və bu Qaydanın 3.3-cü bəndində göstərilən sənədləri əlavə edərək göndərirlər.".

**2.** 3.3.2-ci və 3.8.3-cü yarımbəndlər ləğv edilsin.

**3.** 3.3.3-cü yarımbənddən "təsdiq olunmuş" sözləri çıxarılsın və həmin yarımbənddə "istisna olmaqla." sözləri "üçün xidmət müqaviləsinin (müqavilələrin) surəti (surətləri);" sözləri ilə əvəz edilsin.

**4.** Aşağıdakı məzmunda 3.3.4-cü yarımbənd əlavə edilsin:

"3.3.4. ərizə ərizəçinin nümayəndəsi tərəfindən doldurulduğu təqdirdə, müvafiq səlahiyyətini təsdiq edən sənədin surəti.".

**5.** 3.7-ci bəndin ikinci cümləsində "olunur" sözü "olunmaqla yanaşı, uçota alınma ilə bağlı elektron təsdiqetmə bildirişi göndərilir." sözləri ilə əvəz edilsin.

**6.** Həmin Qaydaya 1 nömrəli əlavə - "Uçota alınma üçün Ərizə" üzrə:

6.1. "Hüquqi şəxsin adı: ______________________" sətrindən sonra aşağıdakı məzmunda sətir əlavə edilsin:

"Rəhbərin vəzifəsi, soyadı və adı: _____________________________";

6.2. "Fəaliyyət ünvanı: ________________________" sətrindən sonra aşağıdakı məzmunda sətirlər əlavə edilsin:

"İnternet informasiya ehtiyatının ünvanı: ________________________";

"Fəaliyyət növü (biri və ya bir neçəsi seçilməlidir): Operator □, İnternet provayder □, Host provayder □";

6.3. "Qeyd" hissəsi ləğv edilsin.

**7.** Həmin Qaydaya 2 nömrəli əlavə - "Uçota alınma üçün Ərizə" üzrə:

7.1. "Fəaliyyət ünvanı: ________________________" sətrindən sonra aşağıdakı məzmunda yeni sətirlər əlavə edilsin:

"İnternet informasiya ehtiyatının ünvanı:______________________";

"Fəaliyyət növü (biri və ya bir neçəsi seçilməlidir): Operator □, İnternet provayder □, Host provayder □";

7.2. "Qeyd" hissəsi ləğv edilsin.

**8.** Həmin Qaydaya 3 nömrəli əlavə - "İnternet telekommunikasiya xidməti göstərən operatorların və provayderlərin uçotu haqqında bildiriş" üzrə:

8.1. "operator/provayder (lazım olmayanın üstündən xətt çəkilir)" sözləri "______________________________" sözləri ilə əvəz edilsin;

(fəaliyyət növü)

8.2. bildirişin aşağı sol küncünə "Sənədə aid informasiyanı qrafik şəkildə təsvir edən ikiölçülü matriks-kod (QR kod)" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti.- 2021.- 13 iyun.- S.3.